# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti http://www.amu.edu.az Qəzet 1933-cü ildən çıxır | №-04 (1721) | 27 feral 2021-ci il |

# Prezident İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər

**XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.

* * *

Xocalı soyqırımını törətməkdə düşmənin məqsədi torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirdi, qəhrəman övladlarımızı Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil mübarizəyə səfərbər etdi.

İllər keçdi. 2020-ci ildə baş verən Vətən müharibəsində müstəqilliyin övladları 30 il işğal altında qalan torpaqlarımızı azad etməklə yeni reallıq yaratdı, "dəmir yumruq" qalib gəldi. 44 günlük müharibədə misilsiz igidlik nümunələri göstərən qəhrəman ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Xocalı faciəsi qurbanlarının da qisasını aldı, şəhidlərimizin qanı yerdə qalmadı. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, Vətən bütövləşdi. Bununla da xalq öz rəhbərinin ətrafında yumruq kimi birləşərək tarixi hədəflərinə qovuşdu.

## BU SAYIMIZDA

## Qış imtahan sessiyasının yekunları müzakirə olunub

səh.2



## Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri ATU-nun qonağı olub

səh. 3

## Kafedralara müasir avadanlıqlar təqdim olunub

səh. 5



## ATU-da Xocalı faciəsi ilə bağlı onlayn tədbir keçirilib

səh. 4

BÖYÜK ELMİ ŞURADA

# Qış imtahan sessiyasının yekunları müzakirə olunub

## Fevralın 25-də Böyük Elmi Şuranın onlayn formatda növbəti iclası keçirilib



Öncə şura üzvlərini və dəvət olunan kafedra müdirlərini salamlayan ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu semestrdə artıq hissəvi də olsa yuxarı kurslarda dərslərin ənənəvi qaydada bərpa olunduğunu, yaxın gələcəkdə digər kurslarda da əsas fənlərin canlı şəkildə tədris ediləcəyinə əminliyini bildirib.

Pandemiya ilə bağlı böyük bir fasilədən sonra universitetimizdə nəinki tədrisin, digər proseslərin də canlandığını vurğulayan rektor qeyd edib ki, həm problem komissiyasının, həm aprobasiya seminarlarının, həm də dissertasiya şuralarının iclasları Ali Attestasiya Komissiyası tərəfindən təqdim olunmuş xüsusi qaydalarla nizamlanacaq: "İndi texniki hazırlıqlar aparırıq. İclaslar maksimum 10 nəfərin zalda, qalanların onlayn iştirakı ilə bərpa olunacaq. Mart ayından bu proseslərə start veriləcək. Səbirsizliklə pandemiyadan uğurla çıxmağımızı gözləyirik. Bilirsiniz ki, nə qədər təkmilləşdirməyə çalışsaq da, onlayn dərslər xüsusilə Tibb Universitetində canlı dərsləri əvəz etmir. Təsadüfi deyil ki, Təhsil Nazirliyi məhz bir neçə ali təhsil ocağında, o cümlədən Tibb Universitetində əyani dərslərin aparılmasına icazə vermişdir. Ona görə də, xüsusən, yuxarı kurslarda tədrislə məşğul olan kafedralara müraciət edərək vurğulamaq istəyirəm ki, bütün dərslər Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş karantin qaydalarına uyğun aparılmalıdır".

Rektor G.Gəraybəyli giriş nitqindən sonra gündəlikdə duran məsələləri diqqətə çatdıraraq "Azərbaycan Tibb Universitetinin 2020/2021-ci tədris ilinin qış imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması üçün universitet kollektivinin qarşısında duran vəzifələr" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevə verib.

COVID - 19 pandemiyası və Vətən Müharibəsi ilə əlaqədar cari dərs ilinin payız semestrində tədris prosesinin Azərbaycan Nazirlər Kabinetinin xüsusi karantin rejimi dövründə qəbul etdiyi qərarlara uyğun aparıldığını söyləyən prorektor imtahanın qiymətləndirməsində nəzərə alınan amillərə toxunub. Bildirib ki, cari qiymətləndirməyə ayrılan 50 balın üzərinə əlavə 50 bal artırılmaqla imtahanın qiymətləndirilməsi 100 balla aparılıb: "Aralıq qiymətləndirmə zamanı keçid bal 51 hesab edilmişdir. İmtahan keçirilən fənlər üzrə hər test 2 balla qiymətləndirilməklə 50 test sualı hazırlanmışdır. İmtahanda istifadə olunan bank sualları bütün fənlər üzrə təhsil proqramının məzmunu nəzərə alınaraq 30 faizə qədər azaldılmışdır".

Hesabat məruzəsində imtahan sessiyasının nəticələri də öz əksini tapıb. 6533 tələbənin sessiyanı müvəffəqiyyətlə başa vurduğu bildirilib. Onlardan 86,5%-i sessiyanı "əla", 11,1%-i əla" və "yaxşı", 1,3%-i isə qarışıq qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə cəmi 1,1% tələbənin akademik borcu qalıb ki, bu da fakültələr və kurslar üzrə kəmiyyət və keyfiyyət göstəricilərinin yüksək olduğunu göstərir.

Prorektorun sözlərinə görə, son 5 ildə ATU-ya qəbul olunan tələbələrdən 380-ə yaxını 600-dən çox bal toplayanlardır: "Təkcə ötən il istisna olmaqla, Prezident təqaüdçülərinin sayına görə ali məktəblər arasında həmişə birincilik qazanmışıq. Bu il universitetimizi seçən 24 Prezident təqaüdçüsünün hamısı bu adı qoruyub saxlaya bildi".

44 günlük müharibə dövründə internet şəbəkəsinin olmaması səbəbindən sıxlaşdırılmış tədris prosesinə başlayaraq müəyyən güzəştlər etdiklərini söyləyən professor S.Əliyev qiymətləndirmənin nəticələrindən narazı qalan tələbələr üçün təşkil edilən Apellyasiya Komissiyasının işini də yüksək qiymətləndirib. İmtahan sesiyası müddətində universitetin elektron poçtuna daxil olan 1156 müraciətə Apellyasiya Komissiyası üzvlərinin, fənn üzrə ekspertlərin və tələbələrin iştirakı ilə onlayn baxıldığını, əvvəlki semestrdən akademik borcu qalan və üzürlü səbəbdən imtahanda iştirak edə bilməyən tələbələrin fənni təkrar dinləmədən imtahan vermələrinə şərait yaradıldığını deyib.

Hesabat məruzəsində səslənən fikirlərə münasibət bildirən rektor imtahan nəticələrinin reallığı tam əks etdirmədiyini vurğulayıb və bunu pandemiya dövrünün yaratdığı fəsadlarla, dərs prosesinin onlayn şəkildə aparılması, eləcə də imtahanların xeyli yüngülləşdirilməsi ilə əlaqələndirib: "Builki imtahan sessiyası da göstərdi ki, bəzi kafedralarda testlər yenilənmir və yaxud hazırlanan testlərin səviyyəsi aşağıdır. Biz bu məsələlərə dair gündəlik tədbirlər həyata keçirirık. Çox vacib bir məqam da indiki semestrdə ənənəvi dərslərin bərpasıdır. Təəssüflə qeyd etmək istərdim ki, pandemiya dövrü həyatımızın digər sahələri ilə yanaşı, təhsilimizə də mənfi təsir göstərib. Bir müddət əvvəl bəzi tələbələr bizə müraciət edərək dərslərin onlayn keçirildiyi üçün təhsil haqqının 50 faiz azaldılmasını istəyirdilər. Yuxarı kurslarda ənənəvi tədris bərpa olunandan sonra müraciət edənlər isə əyani tədrisə qayıtmaq istəmədiklərini, onlayn dərslərin daha yaxşı olduğunu bildirirlər. Çox təəssüf ki, bu tendensiya müəllimlər arasında da var".

Kafedra müdirlərinin ilk növbədə tədris, müalicə işlərinə, həmçinin elmi və digər işlərə cavabdehlik daşıdığını vurğulayan rektor bildirib ki, yaşından və rütbəsindən asılı olmayaraq əgər kafedra müdiri yerindədirsə, bütün proseslər normal gedir. O kafedra müdirlərinin ki, fəaliyyəti qənaətbəxş deyil, həmin kafedralarda özbaşınalıq baş verir.

Professor G.Gəraybəyli yekun nitqində universetlə bağlanılan müqavilənin şərtlərinə əməl eməyin vacibliyinə də toxunaraq xatırladıb ki, bütün işçilərlə müqavilələrimiz tədricən yenilənəcək. Universitetlə əməkdaşın münasibəti məhz bu müqavilə əsasında tənzimlənəcək.

"Hər bir universitetin inkişafında əsas hədəf beynəlxalq akkreditasiya və beynəlxalq reytinqlərdə yüksək yer tutmaqdır" - deyən rektor bizim universitetdə də bu istiqamətdə işlər aparıldığını, bu məqsədlə yaratdığı işçi qrupuna beynəlxalq akkreditasiyaya nail olmaq üçün yol xəritəsi hazırlamağı tapşırdığını, prosesə beynəlxalq ekspertlərin də cəlb ediləcəyini söyləyib. Onu da vurğulayıb ki, Azərbaycan Tibb Universitetinin diplomları müxtəlif ölkələrdə, o cümlədən ABŞ-da birbaşa qəbul olunmasa da, məzunlarımız təkrar imtahan verərək müəyyən mərhələdən keçməklə həkim adı qazanmaq imkanına malik idilər: "Ancaq yeni qərar çıxıb. Artıq 2024-cü ildən beynəlxalq akkreditasiyadan keçməyən universitetlərin məzunları hətta bu prosesə cəlb edilməkdən də məhrum olacaqlar. Ona görə də istər elm, istər tədris, istərsə də beynəlxalq məsələlərlə bağlı sahələrdə hansı mərhələlərdən keçəcəyimiz barədə konkret planlarımız olmalıdır".





Universitetin rəhbəri klniki kafedraların əsasən şəhər poliklinikalarında yerləşən bazalarında mövcud olan problemlərdən də söhbət açıb və tövsiyələrini verib. Bundan sonra müzakirəyə çıxarılan müxtəlif məsələlər haqqında şura üzvlərini məlumatlandırıb.

I Uşaq xəstəlikləri kafedrasının professoru Nəsib Quliyevi kafedrada məsləhətçi-professor vəzifəsinə seçən, professorlar Nadeem Fazala və Messoud Ashinaya "Azərbaycan Tibb Universitetinin Qonaq Professoru (Visiting Professor)" adını verən Böyük Elmi Şura digər təklif və müraciətləri də təsdiqləməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri ATU-nun qonağı olub

## Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Bilal Hayeni qəbul edib

**ATU-nun rektoru, professor Gəray Gəraybəyli Vətən Müharibəsi zamanı göstərilən hərtərəfli dəstək üçün cənab səfirə öz təşəkkürünü bildirib.**

*"Hazırda dünyanın 30-a yaxın ölkəsindən olan 85-ə yaxın ali təhsil və elmi-tədqiqat qurumları ilə əməkdaşlığımız mövcuddur. ATU əcnəbi tələbə sayına görə ölkənin lider universitetidir. Belə ki, Tibb Universitetində 37 ölkədən 2526 nəfər xarici vətəndaş təhsil alır. Ali məktəbimizdə Pakistandan da 24 tələbə təhsil alır."*



Görüşdə Azərbaycan və Pakistan arasında müxtəlif sahələrdə uzun illərə dayanan əməkdaşlıq münasibətlərinin tibb sahəsi üzrə də sürətli inkişafından söz açılıb və bu əməkdaşlığın genişləndirilməsi barəsində fikir mübadiləsi aparılıb.

Görüş zamanı rektor, professor G.Gəraybəyli son illər ATU-nun beynəlxalq əlaqələrinin genişləndiyini bildirərək, əməkdaşlıq qurulan ali məktəblərin sayının artdığını da xatırladıb: "Hazırda dünyanın 30-dək ölkəsindən 85-ə yaxın ali təhsil və elmi-tədqiqat qurumları ilə əməkdaşlığımız mövcuddur. ATU əcnəbi tələbə sayına görə ölkənin lider universitetidir. Belə ki, Tibb Universitetində 37 ölkədən 2526 nəfər xarici vətəndaş təhsil alır. Onların sırasında 24 pakistanlı tələbə də var".

Professor G.Gəraybəyli Pakistandan olan tələbə sayının artırılması, həkim mübadiləsinin təşkil olunması, birgə elmi araşdırmaların aparılması üçün səyləri gücləndirməyin vacibliyini vurğulayıb.

Pakistanın ölkəmizdəki səfiri Bilal Haye də öz növbəsində Azərbaycan hökumətini və xalqını böyük qələbə münasibətilə təbrik edib. Səfir Dağlıq Qarabağ məsələsində Pakistanın həmişə Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyini bildirib. Sözünə davam edən səfir Azərbaycan Tibb Universiteti ilə Pakistanın ali məktəbləri arasında əməkdaşlıq əlaqələrinin qurulması və gücləndirilməsi, qarşılıqlı layihələrin icrası ilə bağlı atıla biləcək addımlardan da danışıb.

2020-ci ildə Azərbaycan Tibb Universitetinin 90 illik yubileyinin qeyd olunduğunu bildirən rektor Gəray Gəraybəyli cənab səfirə ATU-nun 90 illik yubiley medalını təqdim edib.

Görüşdə ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev, Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin köməkçisi İqbal Abdullayev iştirak ediblər.









**ATU-nun mətbuat xidməti**

*Xocalı soyqırımından 29 il ötür*

# Bu qətliam xalqımızın yaddaşından heç vaxt silinməyəcək!

**Erməni terrorçularının xalqımıza qarşı həyata keçirdikləri etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində törətdikləri qanlı cinayətlər, qətliamlar arasında Xocalı faciəsi xüsusi amansızlığına görə seçilir. Təkcə bir gecədə Xocalı şəhərinin yerlə-yeksan edilməsi, qadın, uşaq və qoca demədən 613 günahsız insanın məhz azərbaycanlı olduqlarına görə qətlə yetirilməsi bu qətliamın soyqırım olduğunu təsdiqləyir.**

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər.

Hücumdan əvvəl, fevralın 25-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlamışdır. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-ı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdür. Belə bir vəziyyətdə, erməni əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqdakı azərbaycanlılar məskunlaşmış Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur olmuşdur.

Bu qırğının nəticəsində 613 günahsız insan xüsusi amansızlıqla qətlə yetirilib. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i yaşlılar olub. 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Həmçinin 487 nəfər ağır yaralanıb, 1275 nəfər girov götürülüb. Faciədən sonra əsir götürülən azərbaycanlılar amansız işgəncələrə məruz qalıblar.




Xocalı soyqırımına ilk dəfə hüquqi qiymət ümummilli lider Heydər Əliyev tərəfindən verilib. 1994-cü il fevralın 24-də ulu öndərin imzaladığı fərmanla həmin gün xalqımıza qarşı törədilən soyqırımı aktı kimi qeyd edilməyə başlandı. Xocalı hadisələrini həm faciə, həm də xalqımızın qəhrəmanlıq salnaməsi adlandıran Heydər Əliyev şəhərin müdafiəçilərinin xidmətləri ilə bağlı sərəncam da imzaladı. Soyqırımın ildönümündə xocalılılarla görüşdə isə bu hadisəni əsrin ən dəhşətli faciəsi adlandırdı.






Vəhşicəsinə törədilmiş bu faciəyə görə ATU rəhbərliyi və kollektivi adından xalqımıza başsağlığı verir və Xocalıda şəhid olmuş insanlara, habelə bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik.

#khocaly #khocaligenocide #justiceforKhojaly

#Xocalı29il #XocalıSoyqırımı #JusticeforKhojaly #KhojalyGenocide #XocalıyaƏdalət

## ATU-da Xocalı faciəsi ilə bağlı onlayn tədbir keçirilib

**◆ Xocalı faciəsindən 29 il ötür. Bununla əlaqədar Azərbaycan Tibb Universitetində onlayn tədbir keçirilib. Öncə faciə zamanı həlak olanların ruhu bir dəqiqəlik sükutla yad edilib.**






ATU-nun Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev erməni faşizmi tərəfindən törədilən Xocalı soyqırımının XX əsrin ən böyük və insanlığa sığmayan faciəsi olduğunu bildirib. Bu qətliamı törədənlərin uzun illər cəzasız qaldığını və bu heyfin Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında aparılan II Vətən Müharibəsi zamanı müzəffər ordumuzun misilsiz qəhrəmanlığı ilə alındığını vurğulayıb. S.Əliyev qeyd edib ki, Azərbaycan xalqı Xocalı soyqırımını heç zaman unutmayacaq və əsl həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında gəncliyin də üzərinə məsuliyyət düşür.




ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Rauf Vəliyev də Xocalı soyqırımı barədə danışıb. O, bu faciənin bir sıra dövlətlər tərəfindən tanındığını qeyd edib. Vətənin müdafiəsində ATU tələbələrinin də fəal iştirak etdiyini xatırladıb. Xocalı faciəsinin dünya ictimaiyyətinə çatdırılmasında universitetin məzunu olmuş tele-jurnalist Çingiz Mustafayevin xüsusi xidməti olduğunu vurğulayıb. R. Vəliyev qeyd edib ki, Azərbaycan Ordusunun qazandığı zəfərdə ATU-nun məzun və tələbələrinin də payı var.

Daha sonra İctimai səhiyyə fakültəsinin VI kurs tələbəsi Taleh Qasımov şair Zəlimxan Yaqubun "Layla, Xocalım layla" şerini qiraət edib. Tədbirdə Xocalı faciəsi ilə bağlı tələbələrin hazırladığı video-çarx da nümayiş etdirilib.

**ATU-nun mətbuat xidməti**

**Eldar İSMAYIL**

## XOCALININ DƏRDİ HARAY...

Ulu tanrı, hardan gəldi bəd xəbər?
Bəd xəbərə ürək dözsün nə qədər?
İç dünyamdan bir ah qopdu bu səhər,
Xocalının dərdi haray, ay haray!

Bu milləti qırdıran kim, qıran kim?
İgidləri kürəyindən vuran kim?
Bilinmirsə kim müttəhim, kim hakim...
Xocalının dərdi haray, ay haray!

Dağı-daşı sac içində qovruldu,
Böyük-kiçik tank altında qırıldı.
Xocalının külü göyə sovruldu...
Xocalının dərdi haray, ay haray!

Nə qocası, nə cavanı seçildi,
Qadınların qızıl qanı içildi.
Körpələri xəzəl kimi biçildi,
Xocalının dərdi haray, ay haray!

Bədən getdi, qol doğandı, baş dindi,
Göz ovuldu, göy ağladı, yaş dindi.
Torpaq yandı, yurd dağıldı, daş dindi...
Xocalının dərdi haray, ay haray!

Zülmü görüb zaman təzdən qocaldı,
Xatın kəndi bu vəhşətə mat qaldı.
Öz dərdini unudaraq ün saldı-
Xocalının dərdi haray, ay haray!

Aman Allah, tufana bax, tufana,
Şəhər zülmət, toz qarışıb dumana...
Saçın yolub dad eləyir hər ana,
Xocalının dərdi haray, ay haray!

Belə sərgi sərməmişdi bu dünya,
Belə dövran sürməmişdi bu dünya,
Belə qırğın görməmişdi bu dünya!
Xocalının dərdi haray, ay haray!

Qayasına mən başımı qoyaram,
Torpağını al qanımla boyaram.
Dünya boyu sızıldayar bu yaram...
Xocalının dərdi haray, ay haray!

Xocalının dərdi bizə qalx! -deyir.
Düşmənləri süngüsünə tax! -deyir.
Qılıncını nərə çəkib çax! -deyir.
Xocalının dərdi haray, ay haray!

Bu harayda Allah eşqi olmalı!
Axan qanlar qan yaddaşı qalmalı!
Bu qisası əzəl-axır almalı!
Xocalının dərdi haray, ay haray!
İnsanların mərdi haray, ay haray!

**1992**

# Kafedralara müasir avadanlıqlar təqdim olunub

## *Tələbələr "sintetik meyit" üzərində dərs keçəcəklər*

**Azərbaycan Tibb Universitetində tədris prosesinin yaxşılaşdırılması, praktik dərslərin keyfiyyətinin daha da artırılması məqsədilə işlər davam etdirilir. Tələbələrin müasir standartlara uyğun təhsil almasını təmin etmək üçün praktiki məşğələlərdə son model texnologiya əsasında hazırlanmış tibbi avadanlıqlardan istifadə olunur. Bu günlərdə ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrası, həmçinin Tibbi mikrobiologiya və immunologiya kafedrası üçün əldə olunmuş yeni tip unikal avadanlıqların təqdimatı keçirilib.**

Təqdimat mərasimlərində Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli, ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının professoru Vaqif Şadlinski, kafedra müdiri vəzifəsini müvəqqəti icra edən dosent Anar Abdullayev, Tibbi mikrobiologiya və immunologiya kafedrasının müdiri professor Həqiqət Qədirova, ATU-nun tədris şöbəsinin müdiri, dosent Samir Cavadov, ATU-nun təsərrüfat və təchizat şöbəsinin müdiri Elçin Əlizadə iştirak ediblər.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasında yeni anatomik mulyajlara baxış keçirib. ABŞ-ın SynDaver şirkətinin istehsal etdiyi bu sintetik "bədən"dəki orqanlar canlı insanın əzələ, sümük-qığırdaq, damar-sinir elementlərinə maksimal dərəcədə uyğundur. Onların ölçüləri və xarici görünüşü insan orqanları ilə eynidir. Sintetik meyit mulyajından insan anatomiyası fənninin tədrisi zamanı əksər bölmələrin izahında istifadə etmək olar.

Anatomik mulyajda istifadə olunan əzələlər, daxili orqanlar, damar və sinirlər canlı toxumaların fiziki-kimyəvi, termik və mexaniki xüsusiyyətlərini imitasiya edir. Sintetik meyit modelinə sinir və damar sisteminin əsas morfoloji elementləri daxildir. Ümumiyyətlə, SynDaver şirkəti insan və heyvan toxumalarının, eləcə də bədən hissələrinin və tam bədənin ən mürəkkəb sintetik analoqlarının istehsalı ilə məşhurdur. Bu tip texnologiyalar anatomiya dərsləri, klinik-cərrahi məşğələlər zamanı insan meyitlərini əvəz etməyə imkan verir. ATU-nun tələbələri bu cür mulyajlar üzərində açıq ürək əməliyyatlarına kimi müxtəlif növ əməliyyatların aparılmasını məşq edib öyrənə bilərlər.

Qeyd olunub ki, SynDaver şirkətinin təqdim etdiyi məhsulların işlədilməsi və saxlanılması xüsusi diqqət və məsuliyyət tələb edir. Sintetik insan bədənləri ayda 2 dəfə xüsusi vannalarda tələb olunan qaydada yuyulub-təmizlənməlidir. SynDaver mulyajlarına yalnız əlcəklə toxunmaq olar. İstifadə edilən xlorlaşdırılmış qranulların mulyajla birbaşa təmasına yol verməmək olmaz. Hansısa prosedurun düzgün yerinə yetirilməməsi mulyajın keyfiyyətinə mənfi təsir göstərə bilər.

ATU-nun rektoru, professor Gəray Gəraybəyli, həmçinin, Tibbi mikrobiologiya və immunologiya kafedrasının tədris və elmi laboratoriyaları üçün alınmış avadanlıqlarla da tanış olub. Qeyd olunub ki, kafedrada 2 tədris otağı müasir tələblərə və infeksion nəzarət qaydalarına cavab verən tərzdə qurulub. Bu tədris otaqlarında hər bir tələbə xüsusi quruluşlu laborator masalarında lazımi ləvazimatlarla təchiz edilmiş fərdi iş yeri ilə təmin olunur. İş yerində mikroskop, spirt lampası, bakterioloji ilgəklər, sınaq və əşya şüşələri, rəngləmə dəsti, mikrob kulturası və s. var. Bundan əlavə, həmin otaqlarda praktik işin təqdimatını keçirmək, animasiya və ya tədris filmi vasitəsi ilə nümayiş etdirmək üçün kompüter və proyektor da quraşdırılıb. Daha 3 otaqda tələbələr üçün individual iş yerləri yaradılıb və zəruri ləvazimatlarla təchiz edilmişdir. Kafedranın nəzdindəki digər 11 tədris otağı isə bu cür iş masaları ilə qismən təchiz edilib.

Qeyd olunub ki, kafedranın elmi-tədqiqat laboratoriyaları üçün immunferment analizin (İFA) aparılması üçün analizatorlar, immunflüoressensiya reaksiyasının (RİF) aparılması üçün lüminessent mikroskop, toxuma kulturası üçün invert mikroskop, binokulyar mikroskoplarla təchiz edilib. Laboratoriyalarda, həmçinin, mənfi dərəcəli soyuducu, avtoklav, biotəhlükəsizlik şkafları, quruducu şkaflar, termostatlar, sentrifuqalar, homogenizator, mikropipetlər, qidalı mühitlər, reaktivlər və s. vardır. Bütün bunlar ATU-da tələbələrin müasir səviyyəli elmi-tədqiqat işlərinin aparılmasına şərait yaradır.









**ATU-nun mətbuat xidməti**

# Türkiyəli həkimlər tərəfindən qazilərimizin müayinəsi davam edir

**“YAŞAT” Fondunun dəstəyi ilə ölkəmizə gələn türkiyəli həkimlər Vətən müharibəsində ağır yaralanmış qazilərimizin müayinələrini davam etdirirlər.**







Bu barədə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Həkim heyətinin tərkibində ortoped, beyin cərrahı, ümumi cərrah və digər ixtisaslı həkimlər var.

Xatırladaq ki, “YAŞAT” Fondunun dəstəyi, Müdafiə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə Türkiyə Respublikasından həkim heyəti ölkəmizə gəlib.

# ATU-da əyani təhsil qismən bərpa edilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında tədris prosesi və müalicə işinin daha da təkmilləşdirilməsi məqsədilə toplantı keçirilib.**



Tədbirdə klinikanın Pediatriya, Terapiya, Endokrinologiya, Nefrologiya, Kardiologiya, Revmotologiya, Qastroenterologiya, Nevrologiya, Şüa diaqnostika, Reanimasiya, Fizioterapiya və Hematologiya şöbələrinin həkim-rezidentləri iştirak ediblər.

Toplantıda fevral ayının 15-dən əyani təhsilin başlamasıyla əlaqədar olaraq həkim-rezidentlərin vəzifələri, öhdəlikləri, rotasiyaların bölünməsi, seminarların təşkili və digər məsələlər müzakirə olunub.

Tədris Terapevtik Klinikasının direktoru, professor Surxay Musayev, ATU-nun Rezidentura şöbəsinin müdiri, professor Nailə Sultanova, direktorun müavini Samir Allahverdiyev və direktorun müalicə işləri üzrə müavini Fəridə Hacıyeva tərəfindən həkim-rezidentlərin sualları cavablandırılıb.

Qeyd edək ki, 15 fevral 2021-ci il tarixindən etibarən klinikada əyani təhsil bərpa edilib.

# “Müharibənin ağ xalatlı mələkləri”nə həsr edilmiş tədbir

**Azərbaycan Tibb Universitetinin əməkdaşları "Müharibənin ağ xalatlı mələkləri" adlı onlayn tədbirdə iştirak ediblər.**




"Şəhidlər ölməz, Vətən bölünməz” layihəsi çərçivəsində keçirilən tədbir Azərbaycan Tibb Universiteti, Xəzər rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi Kitabxanası, Antalya Azərbaycan Mədəniyyəti və Həmrəylik təşkilatı tərəfindən təşkil olunub.




Onlayn görüşdə Azərbaycan Tibb Universitetinin əməkdaşları ilə yanaşı, 30 tələbəsi də iştirak edib. ATU-nun tibb xidməti mayoru, hərbi cərrahiyyə kafedrasının baş müəllimi Ramin Əliyev və tibb xidməti polkovnik-leytenantı, HTF Tibbi profilaktika kafedrasının rəisi Şahin Süleymanov çıxışlarında Vətən Müharibəsində iştirak edən tibb işçilərinin göstərdikləri şücaətdən danışıblar. Müharibənin ilk şəhid həkimi Turqut Xəlilbəyli və döyüş meydanında cəsurluğu ilə yadda qalan Adil Əfəndiyev barədə xatirələrini bölüşüblər.









Onlayn toplantıya 44 günlük Vətən müharibəsində şəhid olan tibb işçilərinin ailə üzvləri və yaxınları da qatılıblar.

Qeyd edək ki, layihənin məqsədi qəhrəman şəhidlərin tanıdılması və gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsinə yönəlik tədbirlərin təşkilidir.

# Selçuk Universitetindən ATU-ya kitablar hədiyyə olunub










**Türkiyənin Selçuk Universiteti tərəfindən Azərbaycan Tibb Universitetinə 30 adda tibbin müxtəlif sahələrindən bəhs edən kitab hədiyyə olunub.**

Bu kitablar ATU-da yeni tədris olunmağa başlanılan Tibb bacısı ixtisası ilə bağlı dərs proqramını əhatə edən dərsliklərdir. ATU-da tədris prosesinə böyük töhfə olan bu kitablar artıq tələbələrin istifadəsi üçün universitetin Əsaslı kitabxanasına verilib.

Qeyd edək ki, Selçuk Universiteti ilə ATU arasında müxtəlif istiqamətlər üzrə əməkdaşlığa dair memorandum hazırlanacaq. Bu barədə bir müddət əvvəl iki ali məktəbin rəhbərliyi arasında keçirilən onlayn görüş zamanı razılıq əldə olunmuşdu. Gələcəkdə iki ali məktəb atasında tələbə, rezident və müəllim mübadilələrinnin aparılması, müştərək elmi işlərin və qarşılıqlı layihələrin icrası planlaşdırılır.

**ATU-nun mətbuat xidməti**

# Tibb bacılarının gələcək fəaliyyət proqramı müzakirə edilib

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında tibb bacılarının gələcək fəaliyyət proqramını müzakirə etmək, iş prosesinin daha da təkmilləşdirilməsi məqsədilə toplantı keçirilib**



Toplantıda klinikanın pandemiyadan sonra yenidən normal iş fəaliyyətinə başlamasıyla əlaqədar olaraq tibb bacılarının iş qrafiki, qarşıda duran məsələlər müzakirə edilib.

Klinikanın direktoru, professor Surxay Musayev və direktorun müalicə işləri üzrə müavini Fəridə Hacıyeva tərəfindən tibb bacılarının sualları cavablandırılıb.



Sonda toplantı iştirakçılarına müvafiq tapşırıq və tövsiyələr verilib.

Qeyd edək ki, klinika ötən ilin mart ayından etibarən ölkədə koronavirusla mübarizə çərçivəsində pandemiya klinikasına çevrilən klinika 10 fevral 2021-ci il tarixindən öz profili üzrə normal iş fəaliyyətini bərpa edib.

# Azərbaycan Tibb Universitetinin tələbələri Qida Təhlükəsizliyi İnstitutunda istehsalat təcrübəsi keçəcəklər

**Qida təhlükəsizliyi sahəsində mütəxəssislərin formalaşdırılması və peşəkar kadrların seçilərək Qida Təhlükəsizliyi İnstitutu və onun tabeliyində fəaliyyət göstərən laboratoriyalarda işə cəlb edilməsi sahəsində tədbirlər davam etdirilir.**



Bu məqsədlə Qida Təhlükəsizliyi İnstitutunda Azərbaycan Tibb Universitetinin tələbələri ilə görüş keçirilib.

Görüşdə institutun bir sıra departament rəhbərləri ölkəmizdə yeni qida təhlükəsizliyi sisteminin qurulması istiqamətində görülən işlər, qurumun fəaliyyəti və təcrübə keçəcək tələbələrə görəcəyi işlərlə bağlı ətraflı məlumat verilib. Qeyd edilib ki, təcrübə müddətində onlara nəzəri biliklərini əyani şəkildə tətbiq etmək üçün geniş imkanlar yaradılacaq. Bununla yanaşı, tələbələrin təcrübə proqramına cəlb edilmələrinin onların peşəkar kadr kimi yetişmələrində mühüm rol oynayacağı diqqətə çatdırılıb.

Tələbələrin peşəkar kadr kimi yetişməsi üçün Azərbaycan Tibb Universitetinin İctimai səhiyyə fakültəsinin tələbələrinin 3 ay müddətində Qida Təhlükəsizliyi İnstitutunun struktur bölmələrində istehsalat təcrübəsi keçməsi qərara alınıb.

Görüş zamanı iştirakçıların sualları da cavablandırılıb.

# Eldar Ələsgər oğlu İsmayılov

**Azərbaycan ədəbiyyatına və jurnalistikasına ağır itki üz vermişdir. Tanınmış şair-yazıçı, Əməkdar jurnalist, "Təbib" qəzetinin baş redaktoru Eldar İsmayıl ömrünün 79-cu ilində vəfat etmişdir.**



Eldar İsmayıl (İsmayılov Eldar Ələsgər oğlu) 1942-ci il martın 10-da Qərbi Azərbaycanın (indiki Ermənistan) Göyçə mahalının Ağbulaq kəndində anadan olmuşdur. Eldar İsmayıl təhsilə doğma Ağbulaqda başlamış, qonşu Toxluca kəndində orta məktəbdə oxumuşdur. Daha sonra Bakı Mədəni Maarif Texnikumunu və Bakı Dövlət Universitetini bitirmişdir. O, 1967-ci ildən 1972-ci ilə kimi Ağbulaq kənd kitabxanasının və Ağbulaq kənd klubunun müdiri vəzifəsində işləmişdir. Həmin dövrdə rayon komsomol komtəsinin büro üzvü olmuş və Respublika komsomolunun qurultayına nümayəndə seçilmişdir.

Eldar İsmayıl 1972-ci ildən Krasnoseloda çıxan «Dostluq» rayon qəzetinin redaktor müavini vəzifəsinə təyin edilir. Bundan sonra qəzetin səhifələrində «ədəbiyyat bölməsi» daimi yer alır. O, respublika jurnalistlərinin qurultayında nümayəndə kimi iştirak edir.

1979-cu ildən isə Ağbulaq və Şorca kəndlərini birləşdirən Ağbulaq kənd Sovetinin sədri vəzifəsinə seçilmiş, 1988-ci ilə qədər bu vəzifədə çalışmışdır.

Hələ Ermənistanda yaşadığı dövrdə müasir Azərbaycan ədəbiyyatının görkəmli tədqiqatçısı, Azərbaycan MEA müxbir üzvü Yaşar Qarayev, tanınmış folklorşünas alim, filologiya elmləri doktoru, professor Mürsəl Həkimov, ədəbiyyatımızın öncüllərindən olan Bəxtiyar Vahabzadə, Hüseyn Arif, Fərman Eyvazlı kimi şair və yazıçılarımız onun yaradıcılığını yüksək qiymətləndirmişlər.

1988-ci ildə azərbaycanlıların tarixi Azərbaycan torpaqlarından, Ermənistandan deportasiya olunması ilə əlaqədar olaraq Eldar İsmayıl Bakı şəhərində məskunlaşır, bədii və publisistik yaradıcılığını bütün gücü ilə burada davam etdirir.

Ədibin yurd həsrətli «Ulu Göyçə» adlı ilk kitabı da 1990-cı ildə Bakıda «Yazıçı» nəşriyyatında işıq üzü görmüşdür. Bundan sonra bütün ömrünü bədii yaradıcılığa bağlayan Eldar İsmayılın 1988-ci ildə Ermənistanda baş verən hadisələri dolğunluğu ilə əks etdirən «Ermənistan türklərinin 1988-ci il soyqırımı», «Ağrı dağı qədər ağrılarım var», «Məndən ötrü Ermənistan yoxdu, yox», «Şəhid yurdun şəhid övladları» və başqa kitabları işıq üzü görür.

Eldar İsmayıl Bakıya köçəndən sonra əvvəlcə Respublika Statistika Komitəsində, 1990-cı ildən isə Azərbaycan Qaçqınlar Cəmiyyətində işə başlamışdır. Qaçınqanlar Cəmiyyətində ideologiya şöbəsinin müdiri işləyən Eldar İsmayıl eyni zamanda «Göyçə» və «Ulu Göyçə» qəzetlərini nəşr etdirir.

"Göyçənin qisası qalır", "Səttar oğlu", Zülmətdə parlayan qılınc" və "Bir igidin ömrü" kimi tarixi romanları geniş oxucu rəğbəti qazanır.

Onun Hüseyn İsmayılla birlikdə qələmə aldığı «Göyçənin qisası qalır» romanı Azərbaycan yazıçılarının qurultayında son dövrün ən yaxşı nəsr əsərlərindən biri kimi dəyərləndirilmişdir.

Mənzum «Ələsgər» pyesi 1999-cu ildə Azərbaycan radiosunun «tamaşa salonu»nda səsləndirilmişdir.

Eldar İsmayılın «Göyçənin qisası qalır» romanı 14 avqust 2009-cu ildə Azərbaycan Respüblikasının Prezidenti yanında QHTDDŞ və Mahmud Kaşğari adına Beynəlxalq Fond təpəfindən «Soyqırım və erməni təcavüzü» müsabiqəsinin Xüsusi mükafatına layiq görülmüşdür. Şairin Azərbaycan Atatürk Mərkəzi tərəfindən yüksək dəyərləndirilərək nəşr edilən «Türkün xilaskarı» poeması Ulu Atatürkün həyat və fəaliyyətindən bəhs edir. Əsər Azərbaycan və Türk ədəbi ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilmişdir. Heç təsadüfi deyil ki, o Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının 12 mart 2007-ci il tarixli qərarı ilə «Türk Ədəbiyyatına Xidmət» beynəlxalq mükafatına layiq görülub. Şairin «Ulu Göyçə» poeması və «Səttar oğlu» romanı ilə bağlı dəfələrlə televiziya verlişləri hazırlanmışdır. Onun «Sabaha məktub» və «Allah amanatı» şeirlər kitabları Türkiyə Cümhuriyyəti Atatürk Universitetinin Kazım Qarabəkir Təhsil fakültəsində orta təhsil məktəbləri üçün dərslik kimi hazırlanmışdır.

Şair, publisist, yazıçı Eldar İsmayıl ömrünün otuz ildən çoxunu jurnalistlik fəaliyyətinə sərf etmişdir. O, 1997- ci ilin əvvəllərindən ömrünün sonunadək Azərbaycan Tibb Universitetinin nəşri olan «Təbib» qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. 2010-cu ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə Əməkdar jurnalist fəxri adına layiq görülmüşdür.

50-dən artıq kitab müəllifi olan E.İsmayıl haqqında çoxsaylı məqalələr yazılmış, ömür yolunu əks etdirən kitablar, əsərlərinin biblioqrafiyası hazırlanmışdır.

Ədibin son illərdə işıq üzü görən kitablarından "Zavallı" ermənilər, yoxsa zalim ermənilər" , "Ermənistan türklərinin 1988-ci il soyqırımı" (yenidən işlənmiş nəşri) və gənc yazar Gündüz Əhmədli ilə birlikdə qələmə aldığı "Qərbi Azərbaycan, Göyçə-erməni işğalı" adlı kitabları erməni saxtakarlığına, erməni yalanına tutarlı cavabdır.

Ədəbiyyat sahəsindəki xidmətlərinə görə Beynəlxalq Şöhrət ordeninə layiq görülən Eldar İsmayıl müxtəlif illərdə Səhiyyə Nazirliyinin və Tibb Universitetinin fəxri fərmanları ilə də təltif olunmuşdur.

Özündən sonra böyük bir ədəbi irs qoyan, həmişə səmimiyyəti və prinsipallığı ilə seçilən Eldar İsmayılın işıqlı xatirəsi doğmalarının, dostlarının, və onu tanıyan hər kəsin qəlbində əbədi yaşayacaqdır.

***Allah rəhmət eləsin!***

**ATU-nun rektorluğu,**
**Həmkarlar İttifaqı Komitəsi,**
**"Təbib" qəzetinin əməkdaşları**

# Ötən il Azərbaycanda 126 min 571 körpə doğulub

**Ötən il Azərbaycanda 126 min 571 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə həmin göstərici 12,7 təşkil edib.**

Körpələrdən 3300-ü əkiz, 123-ü üçəm, 4-ü isə dördəm doğulanlardır. Əhalinin hər 1000 nəfərinə doğum səviyyəsi Dağlıq Şirvan (15,4), Quba-Xaçmaz (14,5), Kəlbəcər-Laçın (14,4), Lənkəran (14,1), Aran (14,0), Yuxarı Qarabağ (13,2) və Şəki-Zaqatala (13,0) iqtisadi rayonlarında ölkə göstəricisindən yüksək olub.

Bununla yanaşı, ötən il ölkədə 75 min 647 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 7,6 təşkil edib.



Ölənlərin 2006 nəfəri (2,7 faizi) 0-17 yaşda, 9510 nəfəri (12,6 faizi) 18-49 yaşda, 20 min 653 nəfəri (27,3 faizi) 50-64 yaşda, 43 min 478 nəfəri (57,4 faizi) isə 65 və yuxarı yaşda olub.

# ÜST COVID-19-a qarşı qlobal səviyyədə mübarizədə iştirakına görə Azərbaycana təşəkkürünü bildirib

**Ümumdünya Səhiyyə Təşkilatın (ÜST) COVID-19 pandemiyasına qarşı qlobal səviyyədə mübarizə aparan ölkələrə və təşkilatlara təşəkkürünü bildirib. COVID-19 pandemiyasının bütün dünyada geniş yayıldığı bir vaxtda ÜST və onun tərəfdaşları dünya ölkələrinə bu pandemiyaya qarşı mübarizədə öz dəstəklərini davam etdirirlər.**

ÜST COVID-19 pandemiyasına qarşı mübarizədə dünya ölkələrinə töhfə verən hökumətlərə, təşkilatlara və ayrı-ayrı şəxslərə minnətdarlığını ifadə edən məlumat yayıb. Yayılan məlumatda bir çox donor təşkilatların və hökumətlərin dəstəyi sayəsində həyata keçirilən tədbirlər geniş şəkildə qeyd olunur. Təşəkkür bildirilən ölkələr sırasında Azərbaycanın da adı var.




ÜST bildirir ki, donorların və tərəfdaşların dəstəyi olmadan pandemiyaya qarşı mübarizədə həmin ölkələrə kömək mümkünsüz olardı.

ÜST koronavirusla qlobal səviyyədə mübarizəyə töhfə verən, xüsusilə də bu virusa qarşı hərtərəfli mübarizə aparmaq məqsədilə çevik həllər təklif edən bütün hökumətlərə, təşkilatlara və ayrı-ayrı şəxslərə minnətdarlığını bildirir.

Adı çəkilən siyahıda Azərbaycanla yanaşı bir sıra ölkə, həmçinin Afrika İnkişaf Bankı, Bill və Melinda Qeyts Fondu, Amerikalararası İnkişaf Bankı (İİB), İslam İnkişaf Bankı, OPEC, Beynəlxalq İnkişaf Fondu (OFID), "Standard Chartered" bankı, BMT-nin Humanitar məsələlərin koordinasiya ofisi, BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin Əhali Fondu (BMTƏF), BMT-nin Uşaq Fondu (UNICEF), Dünya Bankı kimi təşkilatlar qeyd olunub.

# Maskadan istifadə edilməsi qripə yoluxma hallarının azalmasına səbəb olub

**Pandemiya şəraitində yaşadığımız dövrdə maska həyatımızın əsas aksesuarına çevrilib. Mütəxəssislərin dediyinə görə, gündəlik həyatda istifadə edilən tibbi maskalar nəinki yeni növ koronavirus (COVID-19) infeksiyasından, hətta yayılma təhlükəsi olan digər mövsümi xəstəliklərdən də qoruyur.**

Hər il payız-qış mövsümündə kəskin respirator virus infeksiyalarına yoluxma halı artır. Həkimlər bildirirlər ki, son dövrdə mövsümi xəstəliklərin sayı azalıb. Maskadan istifadə, eləcə də digər karantin qaydalarına əməl olunması xüsusilə qripə yoluxmanın qarşısını alır.



Lakin bu müsbət tendensiya arxayınçılıq hiss yaratmamalıdır, əks halda infeksiyaya yoluxma halı arta bilər. Ona görə də maskadan düzgün istifadə, gigiyenik qaydalara riayət və sosial məsafənin qorunması əsas şərtlərdən biri olaraq qalmalıdır.

# ÜST-nin Azərbaycan nümayəndəliyi bölgələrdə psixi sağlamlığa və psixososial dəstəyə öz töhfəsini verir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) nümayəndəliyi Azərbaycan hökuməti ilə tərəfdaşlıq çərçivəsində sosial işçilər və həssas qruplarla işləyən tibb işçiləri üçün Əsas Psixososial Dəstək və Psixoloji İlk Yardım mövzusunda təlim sessiyalarını davam etdirir.**



Nümayəndəlikdən AZƏRTAC-a bildirilib ki, fevralın 15-dən 27-nə kimi Tərtər, Bərdə, Ağcabədi, Ağdam və Beyləqan rayonlarında keçirilən təlimlərə təxminən 50 sosial işçi qatılıb.

Bu proqram birbaşa həssas qruplarla işləyən xidmət təminatçılarının psixososial dəstək və psixoloji ilk yardım üzrə bilik və bacarıqlarını təkmilləşdirməyi hədəfləyir. Bundan əlavə, iştirakçılar proqram çərçivəsində çətin vəziyyətlərdə işləmək üçün vacib olan və emosional tükənmə sindromunun qarşısını ala biləcək özünəqulluğu da öyrənirlər.

Qeyd edək ki, təlimlər Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzi və Sosial Xidmətlər Agentliyinin təlimçiləri ilə birlikdə aparılır.

İlkin səhiyyə mütəxəssisləri, sosial işçilər və s. kimi ön cəbhə işçiləri üçün əsas psixososial dəstək və psixoloji ilk yardım üzrə təlim proqramının bütün ölkə üzrə davam etdirilməsi planlaşdırılır. ■

# Alimlərdən nikbin proqnoz: havalar isindikcə koronavirusun aktivliyi azalacaq

**Temperatur artdıqca COVID-19 aktivliyini azaldır.**

Amerikalı tədqiqatçılar yoluxma dərəcəsinin hava temperaturundan asılılığını araşdırıb və istilik artdıqca koronavirusun aktivliyinin azaldığını müəyyən ediblər.

"SARS-CoV-2" adi mövsümi xəstəliklərin alqoritm aktivliyinə tamamilə uyğun gəlir. Alimlər artıq nikbin proqnoz verirlər: yazda koronavirusun aktivliyi azalacaq, hətta, ola bilsin ki, tamamilə yox olsun.



Tədqiqatçılar Şimal yarımkürənin əlli ölkəsində xəstələnmə səviyyəsini müşahidə etdikdən sonra belə nəticəyə gəliblər.

Bu, rəqəmlərdə belə görünür: ətrafdakı temperaturun 1 dərəcə artdığı təqdirdə virusun aktivliyi eyni dərəcədə azalır. Amma temperaturun bir dərəcə aşağı düşməsi isə, yoluxma sürətini təxminən 4 faiz artırır.

# 15 dəqiqəlik gündəlik fiziki aktivlik həyat davamiyyətini üç il artıra bilər

**Alimlər qeyd edirlər ki, ömrün uzadılması üçün əsas və eyni zamanda, əlçatan üsullardan biri fiziki fəaliyyətdir. Gündə 15 dəqiqə müntəzəm olaraq fiziki fəaliyyətlə məşğul olmaq tövsiyə edilir.**

Fiziki məşqlərin və hərəkətin yaşlanma prosesini yavaşlataraq insanların həyatını uzada biləcəyini sübut edən dəlillər varmı? Bəli, onlar mövcuddur. AZƏRTAC xəbər verir ki, AARP Təşkilatının (Amerika pensiyaçılar Assosiasiyası) müraciət etdiyi Harvard Universitetinin araşdırması göstərdi ki, "15 dəqiqəlik gündəlik fiziki aktiv fəaliyyət həyat davamiyyətini üç il artıra bilər".

Alimlər səkkiz illik araşdırmanın nəticələrinə əsaslanaraq belə bir həcmdə fiziki aktivliyin ölümün bütün səbəblərdən 14 faiz azalmasına gətirdiyini bildirirlər.

"Hərəkət etmək üçün gündəlik səylər sağlamlıq üçün faydanın əldə edilməsi üçün həlledici əhəmiyyət kəsb edir. Fiziki məşqlər, infarkt, ürək çatışmazlığı, periferik arteriya xəstəliyi və aritmiyalara qarşı həssaslığı azaldır. Siz nəyinki özünüzü daha yaxşı hiss edirsiniz, həm də daha yaxşı işləyirsiniz". Bunu alınan nəticələri şərh edərək, kardioloq Daniel Forman deyib.

Ekspertin sözlərinə görə, fiziki məşqlərdən danışarkən, alimlər, həmçinin, qeyri-idman formatda fəaliyyəti də nəzərdə tuturlar. Beləliklə, daha çox istədiyiniz fəaliyyət növünü seçib onunla məşğul ola bilərsiniz. Gündəlik məşq kimi sayıla bilən tədbirlərin siyahısı: sürətli yerimə, rəqs, üzgüçülük, velosiped sürmə, tennis oynamaq, çəmən biçən maşınla işləmək, rolik sürmək, qaçış, iplə tullanma, oturub durmalar, maşın yumaq, pilləkənlərlə qalxmaq və s.

Maraqlıdır ki, Avropa Kardioloqlar Cəmiyyətinin araşdırmaları gündəlik 15 dəqiqəlik fiziki fəaliyyətin ömrün uzanmasında faydanı da nümayiş etdirib. Doktor Devid Hupinin rəhbərlik etdiyi mütəxəssislər qrupu belə nəticəyə gəldilər ki, "hər gün ən azından 15 dəqiqə fiziki məşqlə məşğul olan insanlarda ölüm riski 22 faiz az olub".



Bu nəticə, 1011 nəfərdən ibarət bir qrupun (12 il müşahidə olunurdu) və orta hesabla 60 yaşında olan 122 417 nəfərdən ibarət digər qrupun (10 il boyunca müşahidə olunurdu) müşahidələrinin nəticələri ilə təsdiq olunur. Müşahidələrin nəticələri göstərir ki, yaşlı insanlar nə qədər fiziki fəaliyyətdə daha çox məşğul olurlarsa, sağlamlıqları üçün də bir o qədər yaxşıdır. Alimlər hesab edirlər ki, "müntəzəm fiziki aktivlik bütövlükdə sağlamlığa hər cür müalicədən daha yaxşı təsir edir".

## Allah rəhmət eləsin!

Tədris Terapevtik Klinikasının kollektivi, Farmakologiya, Bioloji kimya kafedralarının əməkdaşları "Təbib" qəzetinin baş redaktoru, Əməkdar jurnalist, şair-publisist

**Eldar İsmayılın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Ortopedik stomatologiya kafedrasının əməkdaşları kafedranın assistenti Hanife Musayevaya qızı

**Dilay Musayevanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tədris Cərrahiyyə Klinikasının kollektivi və Neyrocərrahiyyə kafedrasının əməkdaşları Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilova anası

**Solmaz xanım Həsənovanın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bioloji kimya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Firəngiz Quliyevaya anası

**Münəvvər xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Farmakologiya kafedrasının əməkdaşları Mərkəzi Klinik Xəstəxanasının baş həkimi, ürək-damar cərrahı, professor Kamran Musayevə qızı

**Dilay Musayevanın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ETM-in kollektivi iş yoldaşları

**Zenfira Hüseynovanın**

vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur və universitet daxilində yayılır.

**ÜNVANIMIZ:**
**Mərdanov qardaşları - 98c**
**2-ci mərtəbə,**
**Tel.: 595-24-97**
**tabibqazeti@gmail.com**

Lisenziya H - 022633
İndeks -0269
Sayı 2200